## *Mövzu 3.* QENDER PROBLEMLƏRİNİN ANTROPOLOJİ ASPEKTİ

*Cəmiyyətdə bioloji qütblük. Kişi və qadın dixotomiyasının bioloji aşkarlığı. Cəmiyyətdə sosial qütbləşmə. Kişi və qadın dixotomiyasının sosial aşkarlığı. Cəmiyyətdə mənəvi qütbləşmə. Kişi və qadın dixotomiyasının mənəvi aşkarlığı.*

Cinslərarası münasibətin əsasənda sosial məsələ olaraq aşkarlıq formalarından biri cəmiyyət olan varlıq fəlsəfəsi durur. İnsan cəmiyyətinin cinsi biqütblüyü bərabərliyi və eyni zamanda kişiliyin və qadınlığın bərabərliyini təsdiq edir. Bu iki qütb müxtəlif cür, lakin bərabər olaraq özünü insan həyatının bütün sahələrində (iqtisadiyyatda, siyasətdə, təhsildə, məişətdə və s.) bir-birini tamamlayaraq aşkar edə bilər və etməlidir.

İnsan tam olaraq mühitlə qarşılıqlı təsirdədir. Mühit insan üçün özününkü-başqasıdır: mühit onu tamamlayır, hərəkətə sövq edir və nəticəni qiymətləndirir.

İnsanı isə öz növbəsində qarşılıqlı surətdə bir-birini tamamlayan iki komponentdən ibarət anlayış olaraq, yəni kişi və qadın kimi nəzərdən keçirmək olar. Əvvəlki mühazirəmizdə araşdırılan qarşılıqlı tamamlama prinsipinə görə, komponentlərdən biri insanda insaniliyi, yəni tamın keyfiyyətini, digəri isə – qeyri-insaniliyi, yəni mühiti ifadə edir.

Kişinin və qadının bioloji funksiyalarının elementar müqayisəsi məhz qadın başlanğıcının mühitin insan şəkli verilmiş ifadəsi olduğunu təlqin edir, buna görə də həm bioloji, həm də mental səviyyədə o, bir tərəfdən, təhrik edir, digər tərəfdən isə kişi başlanğıcında ifadə olunan ümumbəşəri xüsusiyyətləri konkretləşdirərək məntiqi sona çatdırır. Qadın başlanğıcının belə şərhi kişi və qadının qarşılıqlı tamamlanma məntiqinə müvafiq gəlir. Belə cinsi ixtisaslaşmada həm kişiliyin, həm də qadınlığın gücü və zəifliyi öz əksini tapır və prinsipcə hansı rolun daha vacib olduğunu və daha çox fiziki və mənəvi imkan tələb etdiyini demək mümkün deyil.

Şəxsiyyətin fərdi psixoseksual xüsusiyyətlərinin cinsi psixoseksual meyarlara geyindirilməsi buraxılmamalı bir səhvdir. Ümumi xüsusidən ayrılıqda mövcud deyil. Eyni zamanda həmin qarşılıqlı tamamlanmaya əsasən şəxsiyyətdə öz cinsinin sosial dominantı ilə yanaşı əks cinsin əlamətləri də vardır. Başqa sözlə desək, qender araşdırmaları zamanı kişilər və qadınlar haqqında yox, şəxsiyyətin qadın və kişi xarakteristikaları barəsində danışmaq daha düzgün olardı.

Yuxarıda dediyimiz kimi, canlı və cansız, şüuri və qeyri-şüuri arasındakı fərqlərin nisbiliyi ilə əlaqədar olaraq müxtəlif, cəmiyyət və təbiətin qenderə birbaşa aidiyyəti olmayan hadisələrini – nəzəri cəhətdən effektiv olaraq – kişiliyin və qadınlığın münasibətləri baxımından araşdırmaq olar. Aşağıda biz bunu etməyə çalışacağıq.

Beləliklə, artıq söyləmişdik ki, insan üçün mühit özününkü-başqasıdır. İnsan şəxsi keyfiyyətlərinin tükənməzliyini hiss edir, lakin mühit insanın dərketməsində tükənməzdir, çünki insan onu özünün bir hissəsi kimi yox, xarici bir şey kimi qəbul edir. Mühiti insan xarici bir şey kimi qəbul edir, çünki onun şəxsiyyət kimi təşəkkül tapması mühitdən ayrılmaq meyli prosesində baş verir. Nəticədə – insan mövcudluğunun xülya məntiqinə əsaslansaq, xarici, mühit – ilkindir. Bu xülya tək insana deyil, hər şansı digər cismə də xasdır, çünki hər hansı cisim ayrılmağa cəhd göstərən tamın komponenti kimi reallaşır.

Müəyyən səviyyədəki daxili tükənmə və mühitdən asılılıq varlığın qarşılıqlı əlaqə probleminə energetik yanaşma deməkdir. Enerji anlayışı iş görmək bacarığı, yəni hərəkət etmək deməkdir. Əlbəttə, bu anlayış illüziyadır, çünki prosesin imkanı və həqiqiliyi eynidir. İnsan qavrayışının illüziyasına görə, mühit insana enerji verərək ona təsir göstərir. Öz növbəsində hərəkət edən insan özünü mühitin bir hissəsi kimi realizə edir. Real ontologiyada isə insanın iki komponenti olaraq, mentalitet və mühit tamın inkişaf prosesində özünün daxili xüsusiyyətlərini (komponentlərin komponentləri) sinxron dəyişir və nəyin ilkin olması barədə sual («toyuq» yoxsa «yumurta») prinsipcə heç qoyulmur; biz bu mühazirədə və gələn mühazirələrimizdə illüziya qaydalarına uyğun

(həmin qaydalara əsasən, komponentin aşkar edilən daxili xüsusiyyətləri alınmış bir şey kimi, yaxud da kənardan - alınan bir şeyin nəticəsi kimi qəbul olunur) oynayaraq, əksin şəksiz vacib olduğu hallar istisna olmaqla bunu «unudacağıq». İnsan ölçüsündə varlığın məkan cismiliyi (yuxarıda bax) saxlandığı üçün hərəkət kinematik qarşılıqlı təsirdir. Lakin bu qarşılıqlı təsirin parametrləri kinematik strukturlardan ibarət olan tamın keyfiyyət xüsusiyyətləri ilə müəyyən olunur.

Qəbul edilmiş dillə desək, varlıq – insan varlığı da o cümlədən – materiyadır. İnsan mühitlə elə bir qarşılıqlı mübadilədə olmalıdır ki, mövcudluq imkanı olsun. Mövcud olmaq – öz funksiyalarını mümkün qədər tam şəkildə həyata keçirmək deməkdir.

Bir tərəfdən, insan bir cisim olaraq enerjini mühitdən alır (məsələn, yeməyi). İnsan bədəninin ehtiyacları başlanğıcdır; şüur-şüuraltı (mentallıq) hər şeydən əvvəl cisimdir. Bu ehtiyacı ödəmək üçün insan özünün şüur-şüuraltı bacarığını tətbiq edir, bununla da onu inkişaf etdirir və biliyi nəinki utilitar, həm də özünədəyərli edir. Başqa sözlə desək, şüur-şüuraltı (mentallıq) xüsusi enerjiyə – informasiyaya – ehtiyac duyur. Bu enerji özlüyündə fizikidir, cismidir və onun insan üçün fiziki əhəmiyyəti var; lakin onun «qalan» cisimlə münasibətində, yuxarıda dediyimiz kimi, mentallıq effekti yaranır. Ümumiyyətlə, hər hansı fiziki razılıq hissi insana mental inkişaf üçün lazım olan konkret obrazlar və anlayışlar gətirir. Digər tərəfdən, qarşılıqlı qayıdış prinsipinə əsasən, insan həm mental, həm də sırf fiziki, cismi enerjini sərf etmək ehtiyajı duyur. Başqa cür desək, bu – mühitdən alınan energetik impulsun sonrakı hərəkətidir.

Anlayışların şifrə xarakteri o deməkdir ki, onlar ifadə etdiyi konkret obrazlardan formalaşmır; insan (subyekt) tərəfindən bu obrazlarla əlaqədə kənardan qəbul edilir. Lakin bu yalnız insanabənzərdən mümkün ola bilər. Bu isə cəmiyyətin konkret insan (əlbəttə, ümumi ontoloji prinsiplərə əsasən, real olaraq heç bir cəmiyyət mövcud deyil; biz artıq o nəticəyə gəlmişik ki, insanın dünyası onun fiziki obrazlılığı çərçivəsi ilə məhdudlaşmışdır) formalaşdırmaq üçün mövcud olmasının vacibliyini bildirir. Cəmiyyət (illüziya kimi mövcud olaraq), bir tərəfdən, anlayış «sahə»si olaraq cisimlər kompleksi, digər tərəfdən isə – cismaninin özü, yəni anlayışlarla ifadə olunandır.

Beləliklə, ictimai münasibətlər öz-özlüyündə mövcud deyil; əksinə, cisimlərin konkret qarşılıqlı hərəkəti bəzi yerlərdə üst-üstə düşərək, bəzən isə bir-birindən fərqlənərək bununla da həmin ictimai münasibətlərin keyfiyyət tamı olaraq mövcudluğu deməkdir. Buna görə də insanın mühitə qarşı reaksiyası – bu isə hər şeydən əvvəl konkret, konkret-obrazlı (hissiyyatlı-obrazlı) yaddaşın təsiri altında əşyaya yönəlmiş həvəsdir – bu və ya digər dərəcədə onun tərəfindən dərk olunur. Başqa sözlə, insan davranışının əsası həmişə emosionaldır. Mühit və insan qarşılıqlı surətdə bənzərdir, çünki onlar bir tamlıqdır və müxtəlifdir. Onlar məkan (energetik) dinamik tarazlıq kompleksi kimi müəyyən olunan eyni bir meyara görə müxtəlifdir. Buna görə də insan mühitə ehtiyac duyur və ona meyl edir. Başqa sözlə desək, insan mühiti sevir.

Belə olan halda insan ehtiyaclarının ödənməsi onun öz ehtiyacları haqda və onları ödəmək imkanları barədə subyektiv təsəvvürlərindən asılıdır. Həmin imkanlar, təbii ki, konkret mühitin və konkret insanın xüsusiyyətləri ilə müəyyən olunur.

Artıq dediyimiz kimi, insanın fəaliyyəti hər şeydən əvvəl onun fiziki mövcudluğunun təminatına yönəlmişdir. Nəzərə alsaq ki, mühit insana yalnız bilavasitə təsir göstərir, onda bu fəaliyyəti mühitin konkret fiziki təsirinə reaksiya verən konkret insanın konkret fiziki hərəkəti kimi qəbul etmək gərəkdir. İnsanın fiziki fəaliyyətinə bədənini tarazlıqda saxlamaq vacibliyindən tutmuş «iqtisadiyyat» anlayışına aid insanın fiziki mövcudluğunu təmin etmək üçün gərək olan müxtəlif şeylərin bilavasitə fiziki istehsalınadək müxtəlif cür aşkarlıqlar aiddir, lakin istehsalat, sırf fiziki fəaliyyət olaraq elə həmin bədənin tarazlığını saxlamaq vacibliyindən heç bir şeylə fərqlənmir.

Digər tərəfdən, insan hissi informasiyanı şifrələyən şüura malik olduğu üçün öz hərəkətlərini planlaşdıra bilir; buna görə də mühitin məşhur konkret fiziki təsiri konkret fiziki hərəkətlərin ardıcıllığını müəyyən edərək, insan şüuru vasitəsi ilə ifadə olunur.

Mühiti öz ehtiyacları üçün mənimsəyən insan öz bacarığı çərçivəsində onun ehtiyatlarını tükəndirdiyi üçün onu mənimsəməkdə davam etməlidir – buna görə də onun qarşısında hər dəfə fiziki mövcudluğun yeni problemləri qalxır. Bu – fiziki mövcudluğun təminolunma vəsaitinin müntəzəm çatışmazlığı və nəticə olaraq onlara sahib olmaq deməkdir. Cəmiyyətin fərdlərdən ibarət olması faktı isə son hesabla personal mülkiyyət xarakteri deməkdir.

Mülkiyyət fiziki sahibliyə və bunun digər insanlar tərəfindən faktiki – məcburi yaxud könüllü şəkildə – təsdiqinə əsaslanır. Digər tərəfdən, fərdlər arasındakı əlaqələr mülkiyyətin aramsız hərəkətini bildirir.

Beləliklə, əlaqələrin xarakteri mülkiyyətin hərəkət xarakterini müəyyən edir. Əlaqələrin xarakteri isə insanın fiziki fəaliyyətinin xarakteri ilə və insanın özünün bu fəaliyyət barəsindəki təsəvvürləri ilə müəyyən edilir.

Fiziki fəaliyyətdə başlanğıc məqam – mühitə fiziki təsir alətini tapmaq vacibliyidir. Bu vaciblik insanın cisim olmasını, mühitin bir hissəsi olması faktını ifadə edir.

Alətin mürəkkəblik və səmərəlilik dərəcəsi insan mentalitetinin inkişaf xarakteri və səviyyəsi ilə müəyyən olunur.

Mentalitet həmin məqam üçün cəmiyyətin yaratmış olduğu şəraitdə formalaşır. Bir cəmiyyət çərçivəsində texnologiyanın və mentalitetin uyğunsuzluğu onların köklü dəyişiklikləri yaxud onlar arasındakı çaxnaşmalarla nəticələnir.

Digər tərəfdən, alətin spesifikliyi ondan istifadənin xarakterini, başqa cür desək, fiziki fəaliyyətin lazımi təşkil prinsiplərini müəyyənləşdirir.

Fəaliyyətin ictimai xarakteri və mülkiyyətin mövcudluğu hakimiyyət kateqoriyasını mülkiyyətin müdafiə mexanizmi və fəaliyyətin təşkili kimi determinasiya edir. Lakin heç bir mülkiyyət, heç bir hakimiyyət absolyut ola bilməz, çünki ilkin olaraq – mülkiyyət və hakimiyyət anlayışlarının məntiqinə əsasən – bu cür olmayan bir şeyi özünün bir hissəsi etmək mümkün deyil.

Hakimiyyət həm mental, həm də fiziki səviyyədə mövcuddur. Mentallığın məkanda mövcud olması da özü-özlüyündə fizikidir, hakimiyyətin fiziki mövcudluğu ilkindir.

Lakin insanların hakimiyyəti qəbul etməsi onların mentalitetindən asılıdır. Hakimiyyətin qavranması ümumilikdə insani münasibətlərin spesifikasının qavranışından asılıdır ki, bu həmçinin hüququn hakimiyyətə münasibət qaydaları və şərti prinsiplər kompleksi olaraq yaranması deməkdir.

İctimai varlığın təsvir olunmuş kateqoriyaları (alət, mülkiyyət, hakimiyyət və s.) bir tərəfdən, mühitin bir hissəsi, digər tərəfdən isə insanın onunla qarşılıqlı təsirinin nəticəsidir. Bu nəticə yalnız mühitdən yaxud təkcə insandan yox, onların qarşılıqlı tamamlanmasında asılı olur.

Demək olar ki, insan özünü mühitdə yaratdığı şeylər vasitəsi ilə reallaşdırır. Lakin yaranma prosesi baş verən kimi həmin yaranan mühitin bir hissəsinə çevrilir və artıq insana məxsus olmur. Belə metamorfoza uşaqları kişi və qadının birgə fəaliyyətinin məhsulu olaraq yadımıza salır. Təsadüfi deyildir ki, ənənəvi olaraq insanın yaratdıqları «yetişdirmə» adlanır. Bu o deməkdir ki, insanın yaratdığı bütün şeylər təkcə onun şəxsiyyətinin izini daşımır; həm də əsaslı keyfiyyətlərinə görə ona müvafiqdir. Eyni zamanda insanın hər bir «yetişdirmə»si yaradıldıqdan sonra artıq öz qaydaları ilə yaşayır və prinsipcə, onun nə edəcəyini demək mümkün deyil. Eyni zamanda insan bu prosesdə özünü – nəticənin pis yaxud yaxşı olmasından asılı olmayaraq – reallaşdırır və prinsipcə ondan qaça bilməz.

Burada daha bir sual çıxır: əgər mühit – qadınlığa aiddirsə, insanın yaratdığı bütün şeyləri – kompüterdən uşaqlara qədər – «qadınınkı» saymaq olarmı? Şübhəsiz ki, ilk baxışda bu sual olduqca absurd səslənir, amma komponentlərin qarşılıqlı tamamlanma məntiqi onun düzgünlüyünü təsdiq edir. Biz artıq söyləmişdik ki, qarşılıqlı tamamlanma komponentlərin hər birində digərinin keyfiyyət xüsusiyyətlərinin mövcudluğu deməkdir. Başqa cür desək, kişi və qadının, insan və mühitin qarşılıqlı münasibətləri – tərəflərin

müəyyən dərəcədə öz ilkin çərçivəsindən çıxmayaraq rollarını əvəz etdiyi prosesdir. Lakin elə həmin qarşılıqlı tamamlanma məntiqi hər şeyi öz yerinə qoyur. Başqa sözlə desək, insanın yaratdıqları ona təsir etməyə başlayır ki, bu – insanın cavab reaksiyasına səbəb olur: özünün əvvəlki təsir subyekti (obyekt yox) rolunu bərpa etmək məqsədi ilə nəsə yeni bir şey yaratmaq. Deyək ki, insan hakimiyyət yaradır – sonra, insan ona – yeni hakimiyyət forması olaraq - təsir etməyə başlamayana qədər hakimiyyət insana təsir göstərməyə başlayır. İnsanın mental sahəsinin inkişafı haqqında da hakimiyyət anlayışının mental prinsiplər kompleksi kimi həmin sözləri söyləmək olar.

Dediyimiz kimi, mentalitetin iki səviyyəsi vardır: şüuraltı və şüuri. Şüuraltında mühitin hissi obrazlar kompleksini formalaşdıraraq, insan həmin obrazlar əsasında mühitin öz şüuri qavrayışını inkişaf etdirir. Başqa cür desək, o, şüuraltı obrazlardan anlayış olaraq istifadə etməyi, onları sistemləşdirməyi öyrənir. Bu – mühiti daha adekvat qəbul etməyə, yəni ümumiləşdirici nəticələr çıxarmağa və hissi qavrayışı daha məhsuldar etməyə imkan yaradır. Nəticədə anlayışın dərki hissi qavrayışın müəyyən qiymət və priyomlarını möhkəmləndirərək, sanki şüuraltına qayıdır. Özlüyündə bu proses yenə də kişiliyin və qadınlığın qarşılıqlı hərəkəti ilə müqayisə oluna bilər. Şüuraltı obrazlar – insanda kişi başlanğıcındakı mühit hissinin konkretliyinə ilk reaksiyasıdır. Hissi obraz reallığın surətidir, buna görə də o daxilən sonsuzdur. Bu o deməkdir ki, o, əks etdirdiyi reallıq fraqmentinin daxili sonsuzluğunu təkrar edir. Başqa sözlə desək, həmin obrazı yenidən «qadın sonsuzluq okeanına» geriyə buraxmamaq üçün insan onu eyniləşdirməli, yəni anlayışlarla təmin etməlidir.

Lakin hissi obraz daxilən sonsuz olduğu üçün obrazları anlayışlar vasitəsi ilə təkmilləşdirən insan labüd olaraq nələri isə gözündən buraxır. Nəticədə qavranmış reallıq fraqmentini bütövlükdə təsvir edən hissli-obrazlı model yaranır: lakin bu model ontologiya prinsipləri əsasında inkişaf edərək, konkretləşir, buna görə də elə həmin «surət»i daha konkret səviyyələrdə təşkil edən aydınlaşmamış şüuraltı obrazlar kütləsi aşkar olunur ki, bu – surətin modelləşməsinə ilkin yanaşmanın dəyişməsinə stimul verir.

Modelə daxil olmayan, amma daxil olanlarla pərçimlənmiş şüuraltı obrazların qavranması - idrakın yeni bir səviyyəsinə (pilləsinə) çıxış deməkdir; sonra həmin səviyyənin anlayış çərçivəsi də tükənmiş olur və s. Beləliklə, burada kişiliklə (anlayış) və qadınlığın (hissiyyat) sonu olmayan qarşılıqlı təsiri-mübarizəsi baş verir. Bunun necə baş verdiyinə nəzər salaq.

Şüuraltı göstəriş, şüuraltı qavranış tipi insanın şüurlu fəaliyyətini müəyyən edir. Şüuraltı qat insan dünyaqavrayışını müəyyən edir, çünki məhz hissli-obrazlı şüuraltı sxemlər əsasında insan şüurlu sxemlər çəkir. Şüuraltı sxemlərin dinamiklik dərəcəsi şüurun dinamikliyini müəyyən edir. Buradan da intuisiyanın, yəni dərkolunanın lazımi qədər olmadığından anlayışla isbat edilə bilməyən şüuraltı ilə mental əlaqənin, yəni anlayışla nişanlanmış təcrübənin mövcudluğu aşkar edilir.

Şüuraltının mühakimə etməyən, şərtsiz xarakteri onun inam olması deməkdir. Mühitin ilk qavranma səviyyəsi nominativ səviyyədir: yəni insan şüuraltındakı hissi obrazlara ad verir, yəni onları təsnifləşdirir. Bu – induksiya, empirik elmi ümumiləşmə metodudur.

Şüurun ilk mərhələsi, beləliklə, insanın fərdi inamı dərk etməsinin başlanğıcıdır. Lakin bu dərketmə hələ tənqidi deyildir. İnsan həm təbiətin, həm də ictimai mühitin faktlarını inamla, amma özünün şüuraltı subyektivliyinə müvafiq olaraq qəbul edir. Faktların məcmusu artıq şüurlu inamın yarandığını bildirir. İnsanın mühitlə bağlı faktiki bilik səviyyəsindən asılı olaraq inam daha az, yaxud daha çox həqiqətəbənzər xarakter daşıyır, ancaq o həmişə məhz konkret hissi obrazlardan istifadə edir, çünki mental aləmdə heç bir şey bu obrazlarsız mövcud deyil, necə ki varlıqda da əşyayi, cismi konkretlik xaricində heç bir şey mövcud olmur.

Astrologiya və hiromantiya bu səviyyəyə aiddir. Bu cür biliklər mentalitet və mühitin tamlıq təşkil edərək bir-birini tamamlaması həqiqətini əks etdirir, buna görə də insan

mövcudluğunun qanunauyğunluqlarının məkan-zaman göstəriciləri olur. Astrologiya tamın məntiqindən doğan kosmosun (insanın şüuraltı qatının çərçivəsində hissiyyat sistemi olaraq), insan bədəninin və mentallığın qanunauyğunluqlar paralelliyini əks etdirir. Hiromantiya 1/şüuraltında gələcəyin obrazlarının mövcudluğunu və 2/cisimdə (ovucda) və beyindəki proseslərin paralelliyini əks etdirir. Lakin astrologiya və hiromantiya – bu və ya digər zaman və məkan qanunauyğunluqlarının keyfiyyət səbəblərinin məntiqi təhlilindən məhrum olan sırf empirik bilikdir.

Beləliklə, induktiv bilik – hissiyyatın hissi obraz və həmin obrazla əlaqənin yarandığı söz vasitəsi ilə eyniləşməsidir. Beləliklə hissli-obrazlı duyğu modeli formalaşır. Onun sonrakı inkişafı konkretləşmə məntiqi üzrə gedir. Başqa cür desək, hissli-obrazlı model artıq şüuraltı çərçivədə ikincidərəcəli hissi qavrayış obyektinə çevrilir. Bizə elə gəlir ki, bu pilləni incəsənət, yaxud dünyanın bədii qavrayışı adlandırmaq lazımdır. Bu, anlayış təfəkküründən imtina demək deyildir, əksinə, hissi obrazların araşdırılması onların yenidən yaranması deməkdir və bu, yalnız qabaqcadan – artıq hissiyyat səviyyəsində möhkəmlənmiş olsa belə – təhlil aparmaqla mümkündür. Hissi obraz yaradaraq, insan onun daxili qanunauyğunluqlarını dərk edir və eyni zamanda elmi qavrayış (əvvəlki mərhələ) kimi hissi obrazın nəzərdən keçirilməsini təsnifati (induktiv) ümumiləşmə çərçivəsi ilə məhdudlaşdırır.

İnsanın hər hansı mental vəziyyəti onu fiziki fəaliyyətə istiqamətləndirir; incəsənətin hissi obrazlar yaratması son nəticədə mühitin fiziki cəhətdən müvafiq dəyişikliyə uğraması deməkdir. Obrazların fiziki reallıqla qarşılıqlı təsirinə görə incəsənəti texnologiyadan, əşyalanmış obrazların növünə müvafiq olaraq insanın fiziki surətdə mühitlə qarşılıqlı təsirdə olmaq bacarığından və dəyişilmə üçün mühit materialının keyfiyyətindən ayırmaq olmaz.

İnsanın insanı dərk etməsi bütövlükdə mühiti dərk etməklə mümkün olduğu üçün incəsənətdə insan psixologiyasının təsviri yalnız sırf fiziki mühitin hissli-obrazlı istehsalının nəticəsi olaraq dərk oluna bilər.

İncəsənətin daxili dərəcələri keyfiyyətin aramla inkişaf etməsi kimi müəyyənləşdirilir.

İncəsənəti oyun anlayışından ayırmaq mümkün deyil. İncəsənət o zaman oyun mərhələsinə çatır ki, onun həmin növünə məxsus olan xüsusiyyətləri dərk olunmuş qaydalara çevrilsin. Müəyyən obrazların istifadəsinin möhkəmləndirilməsi onların dərki zamanı bu obrazlarla əlaqəsi yaradılan müəyyən anlayışların möhkəmləndirilməsidir. Başqa sözlə desək, hissi obrazlılıq dilə (oyundanqabaqkı mərhələdə isə obraz hissi «surət» kimi sonsuz sayda fiziki əlamətlərə və assosiasiyalara malik olur, onun anlayış əsası isə yalnız tam «çərçivəli» fiziki təsviridir) çevrilir. Oyun mərhələsi hissli-obrazlı qavrayışı təşkil etməyə və beləliklə də həm incəsənətin həmin növü çərçivəsində yeni mühit obrazlarının cəlb edilməsi üçün, həm də hissli-obrazlı qavrayışın başqa bir mərhələsinə çıxış üçün, yəni incəsənətin başqa bir növünə keçid üçün imkan yaradır. Lakin bununla oyun qaydaları pozulur. Oyun qaydaları elmi induktiv ümumiləşmədən elə onunla fərqlənir ki, absolyutluğa iddia etmir.

İncəsənətin elə növləri var ki, onlarda oyundankənar mərhələlər oyuna nisbətdə gözə görünmür. Bu o zaman baş verir ki, incəsənətin məqsədi, bir qayda olaraq, insanla mühitin qarşılıqlı əlaqəsi konkret fiziki vəziyyət olaraq dəqiq cızıla bilir. Yenə də - qaydalar incəsənətin reallığı ilə ziddiyyət təşkil edirsə, ona yenidən baxılması məsələsi qarşıya çıxır.

İncəsənətin bu növlərini «idman» anlayışı altında birləşdirmək gərəkdir. İdmanın incəsənət kimi müəyyən edilməsi qəribə görünə bilər, lakin bu, bizə qanunauyğun görsənir, çünki idman incəsənətin çərçivə meyarına hissi obrazlar sistemi olaraq cavab verir.

İdman həm fiziki, həm də intellektual ola bilər.

Fiziki idman insan bədəni ilə məkanın qarşılıqlı vəziyyətini təşkil edən spesifik intellekt və hissli-duyğulu qavrayış tələb edir.

İntellektual idman fiziki yerdəyişmə tələb etmir, ancaq onun məqsədi – elə bir intellektual vəziyyətdir ki, dəqiq qeydə alınmış fiziki vəziyyəti (məsələn, şahmatda fiqurların qələbə hesab olunan vəziyyəti) ifadə edir. İntellektual idman fiziki idmanın (buna parlaq misal fiziki idmanda məşqçinin çəkdiyi zəhmətdir) inkişafının nəticəsi olaraq meydana çıxır.

Əgər idmanda taktil, vizual və səs aspktləri məkan situasiyasının elementləri olaraq birləşmişsə və vizual obyektin qavranışında əsasdırsa, incəsənətin digər növlərində bu yaxud digər duyğu növü məkandan abstraktlaşmış olaraq (bu - hissli tamın komponentlərə ümumontoloji bölümüdür) özünüqiymətləndirmə kimi nəzərdən keçirilir.

Rəssamlıq «qeyri-idman» incəsənət növləri sırasında ona görə birinci dayanır ki, görünən obraz insanın görünən mühiti öz mövcudluğuna səs obrazı vasitəsi ilə birləşdirməsindən (sonra isə taktil olaraq mühitlə birləşməsindən) əvvəl qavradığı ilk obrazdır.

Rəssamlığın statikliyi və səssizliyi baş verənlərin kənarlaşmasını təsdiq edir. Heykəltaraşlığın həcmliliyi qavrayışı insanı əhatə edən mühitdəki əşyalar dünyasına keçirir.

Rəssamlıq və heykəltaraşlıqdan fərqli olaraq, memarlıq daxili məkana malikdir ki, bu obyektin insana yaxınlığını təsdiq edir. Burada səssiz statika, yəni obyektlilik daha kəskin qəbul olunur.

Kinematoqraf – gənc sənətdir və incəsənətin digər növləri artıq mövcud olarkən o mövcud deyildi; lakin biz ilk növbədə mühitin qavranma prinsiplərindən danışırıq və kinomatoqrafik mühit də bir-birini əvəz edən şəkillər olaraq həmişə mövcud olub.

Maksimum reallaşmış həcmi statikanı səssiz və müstəvili dinamika əvəz edir. Beləliklə, ilk dəfə varlıq eyni vaxtda aramsız və konkret kimi dərk olunur.

Teatr pantomiması həcmli hərəkət təsəvvürü yaradır. Teatr özündə heykəltaraşlıq və memarlığa analoji olan qavrayış mərhələsini birləşdirir: teatr pərdəsi tamaşaçıdan ayrılmış kimi və onunla vahid kimi qəbul olunur.

Pantomimanın reallığı – hərəkətin və həcmin birləşməsi subyektivləşdirici səsin olmaması ilə ziddiyyət təşkil edir. Beləliklə, pantomima insan qavrayışının desubyektləşmiş obyektivliyini onun hüduduna aparır ki, bu hüduddan kənarda insan qavrayışı səsin köməyi ilə obyektlə birləşir.

Səsli kinematoqrafiya prinsipi məntiqi olaraq səsli teatra tədrici keçid kimi pantomimanın ardınca gedir.

Səsli kinamatoqrafiya və səsli teatrda səs real hissi «surət»in təbii tərkib hissəsi rolunda çıxış edərək vizual obrazdan ayrı deyildir. Lakin incəsənətin sonrakı inkişafı, yəni mühitin bədii qavrayışı (və ümumiyyətlə mühitin qavrayışı) səsli obrazların xüsusi çəkisini artırır, çünki məhz səs vizual məkandakı subyektiv başlanğıcın rolunu açmağa imkan verir.

Beləliklə, səs müstəqil obraza çevrilir. Səsin dərəcələrə bölünməsinə müvafiq olaraq incəsənətin sonrakı növü musiqidir. Musiqi insan subyektivliyinin fiziki vəziyyətini ifadə edir. Bu – mental və cismaninin ilkin fiziki birliyi vəziyyətidir. Amma subyektivliyin yekunu məhz mentalitet, məhz şüur olduğundan musiqi insanı varlığın abstrakt qavrayışı vacibliyinə gətirir. Beləliklə, biz ədəbiyyata – söz sənətinə – yaxınlaşırıq. Söz hissi (hər şeydən əvvəl səsli) obraz kimi və anlayış kimi qəbul olunur. Ədəbiyyatın spesifikliyi ondadır ki, obrazların anlayış yükü xüsusi rol (məsələn, pantomimanın oyun-vizual dili yenə də sözlü anlayışlara müraciət edir) oynayır.

Ədəbiyyatdakı anlayışlar nəzərdən keçirilən obrazlar dairəsini maksimum genişləndirmək imkanı yaradır. Digər tərəfdən, ədəbi qavrayış yalnız əvvəlki mərhələlərin dar konkretliyi əsasında mümkündür.

Ədəbi anlayışlar özü-özlüyündə hissi obrazlılığa istiqamətlənmişdir, çünki konkret hadisələri ifadə edir. Buradaca sual meydana çıxır: əgər söz özlüyündə yalnız hansısa hissi sonsuzluq əlamətlərini ayıraraq, labüd şəkildə abstraktlaşırsa, konkretlik hissi necə yaranır?

Bu effektə onunla nail olunur ki, ədəbiyyat əşyanı bilavasitə ona müvafiq gələn anlayışla deyil, həmin anlayışın komponentləri vasitəsi ilə, yəni nisbətən konkret təyin edir.

Elm «lazım olmayanları» kəsərək, ümumiləşdirməyə cəhd etdiyi yerdə ədəbiyyat hissi «surət»in dərinliyinə gedir. Bu o demək deyil ki, ədəbi təsvir özünü heç nə ilə məhdudlaşdırmır – qeyri-məhdudluq başa çatmamaq deməkdir, biz isə başlanğıcı və sonu olanlardan danışırıq.

Dilin səs fakturası, onun sintaksisi – anlayışa, yəni ifadə etdiyi hissi obrazlara münasibət ifadə edən subyektivlikdir. Başqa sözlə desək, bu obrazlar sözlərin özlüyündə müəyyən fiziki xüsusiyyətləri ilə assosiasiya yaradır. Beləliklə, həmin fiziki xüsusiyyətlər bədii anlayışın onlarla üst-üstə düşməyən mental tamın nüansları rolunda çıxış edir.

Ədəbi süjet tamın ən ümumi keyfiyyətidir, hissi detallar isə – onun komponentləri; buna görə də süjet və detallar mümkün qədər çox qarşılıqlı uyğunluq təşkil etməlidir.

Bədii ədəbiyyatın birinci mərhələsi poeziyadır. Poetik pillədə sözün məhz musiqili, səsli obrazlılığı üstünlük təşkil edir.

Bu heç də o demək deyildir ki, poeziya mənadan məhrumdur. Ədəbiyyatda səs və məna obrazlığının birliyi özünü müəyyən məna obrazlarının bənzər səs nüansları olmasında göstərir. Poeziya məna obrazlarının müəyyən toplusu daxilində səs bənzərliyini nəzərə çarpdırmaq cəhdidir. Bu cür ikili məqsəd poeziyanın nisbi lakonizmini müəyyən edir. Poeziya özünün xüsusi subyektivliyi üzündən xüsusi bir psixologizmə meyillidir.

Lakin hissi «surət»in obrazlı sonsuzluğuna assosiativ dərinləşmə sonda poetik subyektivliyin çərçivəsini sındırır. Nəsr – hissi «surət»in tam semantik ifadəsini (onun sonsuzluğu üzündən labüd olaraq məhdudlaşan) vermək cəhdidir. Nəsrin subyektivliyi hər şeydən əvvəl semantikadadır.

Semantik bütövlük nəsr mətnində hissi obrazların qarşılıqlı əlaqəsi və fiziki ardıcıllığı, başqa sözlə desək, mətnin ritmik işlənməsi deməkdir. Bu ciddi əməl olunan ritm deyil, çünki ritm subyektivliyin biruzəsidir; nəsrin ritmik işlənməsi isə təsvir olunanların real fiziki ritminin qanunauyğun növbələşməsidir.

Nəsr poeziyadan fərqli olaraq psixoloji cəhətdən daha az vurğulanır o mənada ki, qəlbin duyğularını daha çox fiziki vəziyyət vasitəsi ilə təsvir edir; çünki poeziyada daha az dərəcədə subyektiv konkretsizliyə yol verə bilir. Biz burada dərəcə deyəndə real ədəbiyyatı nəzərdə tuturuq ki, orada prosesin ümumontoloji məntiqinə əsasən, sırf nəsr və sırf poeziya olmur.

Nəsrin obyektivlik cəhdi onun məhdudluğunu aşkar edir – bu, subyektiv başlanğıcı tamamilə mətn çərçivəsinin daxilinə keçirmək meylini müəyyən edir. Beləliklə də dramaturgiya yaranır. Nəsrdən və poeziyadan fərqli olaraq dramaturgiya hissi obrazlar dünyasını kənardan araşdırır, sanki müəllifin gözü ilə baxmır. Bu cür effekt hətta ritmik bütövlükdən imtina etmək belə olsa, daha faktiki təsvir hesabına əldə edilir.

Əgər bədii nəsr hər şeydən əvvəl obyektin tam şərhini ifadə etməyə cəhd göstərərək, lakin sistemə uyğun gəlməyən detalları buraxaraq, tamın hiss-obraz nüanslarını öz aralarında bağlamaqla onları axtarıb tapırsa, dramaturgiya həmin keyfiyyət səviyyəsinin qanunauyğunluğunda sonsuzluğun təbii xaotiklik aşkarlığından yan keçərək, obyektin xüsusiyyətlərini sadalayır. Nəsrdə istifadə edilən rabitəli nitq bədii prosesin inkişaf məntiqi üzrə yaranan dramaturgiyanın rüşeymidir. Sırf nəsrdəki rabitəli nitq – əsərin mətni ilə eyni olan müəllif səsidir. Dramaturgiyada sözün səs subyektivliyi özünü personajların nitqində biruzə verir ki, bu nitq həm poetik, həm də prozaik ola bilər.

Kinodramaturgiya isə müəllifin özünü kamera vasitəsi ilə obyektə çevirir. Teatr dramaturgiyası təsvir edilən məkanı real məkanla fiziki vəhdətdə nəzərdən keçirir, uydurulmuş dünyanı real dünyaya keçirərək birincinin fiziki reallığını nəzərə çarpdırır və bununla da bədii təxəyyülün daxili obyektivliyi ilə qavrayışın subyektivliyi arasındakı sərhədi kökündən pozur. Kino və teatr dramaturgiyasında dünyanın poetik və prozaik qavrayışı nəinki personajların nitqində bilavasitə olaraq, eyni zamanda dolayısı ilə, yəni dünyanın xüsusi qavrayışının nəticəsində özünü aşkar edir. Poetik qavrayış subyektivliyə meyl edir və nəticə olaraq nisbi lakonikliyə, real olmayan, amma insanın təsəvvüründə (bu isə, o cümlədən müxtəlif cür effektlərdən istifadəyə gətirir) mövcud olan obrazların hərfi təsvirinə meyillidir; prozaik qavrayış isə əksinə, müəllif nöqteyi-nəzərindən olsa da, reallıq nüanslarını nəzərə çarpdırmaq cəhdinə səbəb olur. Dramaturgiya nitqi və dramaturgiya xaricində vizualdan ayrılmayan, buna görə də daxili səbəblərdən törəyən teatr və kinematoqrafik qavrayışların sücetliyini sistemləşdirərək, onlara təsir göstərir. Ədəbi ideyanın teatra və kinoya köçürülməsi zamanı o, vizualın sonsuzluğu ilə əlaqədar olan dəyişikliklərə məruz qalır. Ədəbi obrazın hərfi mənada köçürülməsi onun nominativ ümumiliyini və müvafiq olaraq konkretləşməsinin və daralmasının vacibliyini üzə çıxarır. Belə ki, ədəbiyyatda dünyanın bədii qavrayışı özünün maksimum ifadəsini tapır və bununla da öz-özünü inkar edir: hissi «surət» nominativ olaraq, anlayışlarda təkrar olunur, buna görə də hissiyyat səviyyəsində mümkün olacağı qədər rəngarəngdir; hissi obrazın («surətin») sonsuzluğu yenidən özünü ədəbiyyatın dramaturgiya mərhələsində daha parlaq aşkar etdikdə, insan qavrayışı sərhədlərinin növbəti genişlənməsi incəsənətdən, nominativ bədii ədəbiyyatdan imtina demək olur.

Lakin incəsənət sayəsində insan dünyanı dərk etməyin yalnız insan qavrayışını dərk etməklə mümkün olduğunu başa düşür və məhz ədəbiyyat sayəsində o, bu dərketmənin sözlə olduğunu başa düşür.

Buna görə də insan mentallığının növbəti mərhələsi (pilləsi, səviyyəsi) – sözün təhlilidir, yəni anlayışların məntiqi təhlilidir. Həmin növbəti mərhələ, beləliklə də, fəlsəfə adlanır.

Fəlsəfənin birinci mərhələsi mühitin müxtəlif faktlarını, daha dəqiq desək, müxtəlif hissi obrazları (əvvəlki mərhələlərə aid olanların hamısını) birləşdirən ziddiyyətsiz abstrakt-məntiqi model qurmaq cəhdidir. Bu – nəzəri elmin mərhələsidir.

Təbii ki, belə yanaşma yalnız anlayış formullarının məntiqi təhlili kimi mümkündür. Lakin anlayış formullarının özü - hər halda şərti olaraq - həqiqət kimi qəbul olunur.

Bu səbəbdən də fəlsəfənin növbəti mərhələsi anlayışların özünün təhlil olunmasıdır.

Hər hansı bir mətn anlayış olaraq hüdudsuzdur, çünki sonsuz dəfə nüanslara baş vuraraq, hər bir anlayışı onun tərkib hissələri vasitəsi ilə hüdudsuz olaraq araşdırmaq mümkündür. Hər hansı duyğu və onu bildirən anlayış prosesdir, buna görə də həmin duyğunu və həmin anlayışı tam olaraq təsəvvür etmək – keyfiyyəti şərtilikdir. Anlayışların təhlili onları tərkib hissələrinə bölür. Və bunlardan da hər biri öz növbəsində kefiyyətcə şərtidir, yəni müəyyən dərəcədə digər tərkib hissəsinə zidddir (bu da məşhur calanmamaq məsələsidir). Bu o deməkdir ki, mətnin təhlili labüd olaraq subyektivdir. Təbii ki, mətn özü də subyektivdir.

Amma konkret duyğularla əlaqəsi olmayan anlayışlar da vardır. Bunlar bütövlükdə varlığı səciyyələndirən anlayışlardır. Buna görə də onlar absolyut həqiqətdir. Amma onlar da ziddiyyətlidir o mənada ki, bir-birini tamalayan komponentlərdən ibarətdir. Bu səbəbdən də həmin ziddiyyət konstruktiv sayılmalıdır.

Beləliklə, fəlsəfə insan duyğuları kompleksini nişanlayaraq, insanın idrak çevrəsini başa çatdırır və bununla insan qavrayışını vahid sistem şəklinə salır. Fəlsəfə bütün əvvəlki mərhələlərə təsir edir və nəticədə tam şəkildə insan idrakının yeni dairəsini çəkir. Nəzərdən keçirdiyimiz mərhələlərdən hər biri getdikcə ilkin qadın hissiyatından

uzaqlaşır, və şüuraltı çağırışlara cavab olaraq kişi anlayış başlanğıcını daha çox ifadə etməyə başlayır. Amma ümummәişәt qapalı inkişaf prinsipinə əsasən, fəlsəfə hissiyyatdan ən uzaq olan mənəvi sahə kimi hissi obrazları maksimum ümumiləşdirir və insanın sonrakı mənəvi inkişafı o vaxt mümkün olur ki, o, yenidən duyğulara qayıtmış olsun. Kişilik və qadınlığın qarşılıqlı münasibəti ilə analogiya yaranır, elə deyilmi?

İnsanın ictimai mövcudluğu ixtisaslaşma deməkdir; ixtisaslaşmanın predmeti isə insan fəaliyyətinin müxtəlif pillələridir. Buna görə də cəmiyyətin həm bir pilləsində, həm də müxtəlif pillələr arasında informasiya mübadiləsi gedir. Təbiidir ki, qarşılıqlı anlaşma məhduddur, amma bu artıq inkişafdakı «calaqsızlıqdır».

Yenə də qeyd etməliyik ki, söhbət cəmiyyətin hərfi mənada kişi və qadın fəaliyyət formalarına bölünməsindən getmir. Hər bir şəxsə bu yaxud başqa dərəcədə bütün fəaliyyət növləri xasdır. Mental fəaliyyətin pillələri barədə söylədiklərimizin hamısı hər bir insana aid edilə bilər. Rəssamlıq, elm, musiqi, ədəbiyyat insanın mental fəaliyyətinin müvafiq pillələrini əks etdirdiyi dərəcədə mövcuddur. Hətta adi qısa bir baxışda belə induktiv ümumiləşmə, rəssamlıq mərhələsi vardır.

Kişi və qadınlığın qarşılıqlı təsiri heç bir vaxt münaqişəsiz olmur. Cəmiyyətin konkret üzvlərinin mental əlamətləri onun daha çoxsaylı qruplarının əlamətləri ilə gözəçarpan ziddiyyət təşkil edir. Bu – daxili prosesin və nisbətən tamın ziddiyyətidir, ona görə də cəmin cəmiyyətin mədəniyyəti çərçivəsində ilk baxışda qeyritipik mədəniyyət hadisələri onun daxili meyillərini ifadə edən ayrılmaz hissəsidir və onun təsiri son halda labüd nəticələr verir. Məsələn, cəmiyyətdə bütövlükdə mədəniyyət dəyişikliklərini qabaqlayan elitar adlanan mədəniyyətin statusu belədir.

O faktı nəzərə almaq lazımdır ki, cəmiyyət məkanda konkret, mühitlə tarazlığa nail olmaq üçün, daha doğrusu, fiziki mövcudluğu təmin etmək üçün yerinə yetirilən fiziki hərəkətlər həyata keçirən konkret fərdlər kompleksi kimi mövcuddur. İnsanın hər hansı mental fəaliyyəti obrazların obyektivləşməsi ilə bağlı olmaqdan savayı, son nəticədə insanın konkret cismi oriyentasiyasını müəyyən edir. İnsanın fiziki fəaliyyəti (oriyentasiyası) onun bacarıqlarını inkişaf etdirir və eyni zamanda yeni bacarığın formalaşdığı fiziki mühit yaradır.

Beləliklə, insanın təsəvvürləri onun hərəkətlərini müəyyən edir. İnsanın hərəkətləri mühitdə nisbətdə xarici bir şeydir və ona absolyut müvafiq gələ bilməz. İnsanın hərəkətlərinin mühitlə «toqquşması» nəticəsində insanın təsəvvürləri korreksiyaya uğrayır. Praktika artıq hazır olan mental zəminə təsir etdiyindən nəticə əvvəlki ideya və obrazların və onların inkar sintezinə çevrilir. Beləliklə, insan öz şəxsi subyektivliyindən xilas ola bilmir və insanın və cəmiyyətin mentallığı bütövlükdə artıq keçilmiş inkişaf yolunu özünə çəkir.

Beləliklə, hər bir «Mən» varlığın müstəqil variantıdır. Bəşər tarixi fərdi mentalitet və qeyri-şüurinin çərçivəsində gedən prosesdir. Və bu proses yenə də insandakı kişilik və qadınlığın (yəni sırf insani və mühitin) – konkret insanın cinsi mənsubiyyətindən asılı olmayaraq – «təkbətək döyüşü»dür.

Şəxsiyyətin keyfiyyətləri və onun fərdi mühitinin obrazları şəxsiyyətin bu və ya digər dövrə aidliyi deməkdir. İnsan ictimai və fiziki mühiti özünün qeyri-şüuri, şüuraltı qatlarında və şüurunda qurur.

İndi bir proses olaraq, özündə keçmişin əlamətlərini saxlayır. Başqa cür desək, burada ümumi nəzəri qanunauyğunluqlar – həm tam, həm də nüanslar – faktual (komponentlər), cəmiyyət tarixi, fərdi özünüdərk üçün vacib olan ayrıca insan həyatı modeli olaraq mövcuddur.

Fərdi inkişaf modeli nə qədər dinamikdirsə, yəni həqiqətə nə qədər yaxındırsa, «Mən»in mövcudluğu o qədər harmonikdir. Hətta şəxs bəşər tarixini bilməsə belə, onun fərdi inkişafını əks etdirərək qeyri-mental səviyyədə onun üçün immanentdir və onu mental səviyyəyə çıxarmaq – şəxsiyyətin inkişafı ilə bağlı məsələdir.

Vər bir var olan şey kimi, illüziya baxımından insan varlığın müxtəlif hissələri, başqa sözlə desək, ayrı-ayrı cisimlər arasındakı qarşılıqlı təsirin səbəb-nəticə yekunudur. Səbəb-nəticə əlaqəsi təsir subyektinin və obyektinin, bu halda kişi və qadının mövcudluğunu nəzərdə tutur.

İnsanın bir tam kimi cismi olması o anlayışın mövcudluğunu bildirir ki, sonradan insan olan keyfiyyəti ifadə etsin. Bu, belə desək, subyektdənəvvəli ifadə etmək üçün genotip anlayışından istifadə olunur. Daha ciddi desək, hər hansı cisim, artıq sübuta yetirdiyimiz kimi, bu yaxud digər dərəcədə ağlabatandır, lakin insan məntiqi meyarlarına nisbətdə subyektdənəvvəlki keyyfiyyət buna heç cür malik deyil.

Bəs bu subyektdənəvvəlkilik sonda necə insana çevrilir və o, gələcək insanda nələri müəyyən edir? Bir tərəfdən, həmin subyektdənəvvəlkiliyə xas olan bu və ya digər fiziki təsir üstünlükləri mühitin müvafiq təsiri ilə rəğbətləndirilərək insanın konkret fiziki keyfiyyətlərinə çevrilir. Subyektdənəvvəlkinin bu «meyillər»i müəyyən fiziki keyfiyyətlər kimi mövcud olur ki, onların mövcudluğu mühitin müvafiq təsirlərinə üstünlük vermək deməkdir. Digər tərəfdən, həmin konkret fiziki keyfiyyətlərin dəyişməsi prosesində onların əvvəlki vəziyyəti hissi yaddaşa çevrilir və bununla da insanın mental həvəslərini (insanın mentallığı, artıq qeyd etdiyimiz kimi, fizikidir) müəyyən edir.

İnsanda fiziki və mentalın ilkin vəhdəti onların qarşılıqlı uyğunluğu, daha doğru desək, qarşılıqlı tamamlanması deməkdir. Subyektdənəvvəlki üstünlük vermələr az ya da çox ola bilər, başqa sözlə desək, subyektdənəvvəlki mərhələdə insanın bacarığı – amma hələ seçilməmiş vəziyyətdə – müəyyən olunur. Beləliklə, genotip şəxsiyyətin ümumi tipini formalaşdırır.

Beləliklə, genotip inkişaf edərək ana mühit çərçivəsində daxili subyektə (rüşeymə) çevrilir. Sual yaranır: gələcək insana münasibətdə mühit-ana və xarici mühit bir-birindən nə ilə fərqlənir?

Gələcək insan xarici mühitin təsirini mühit-ana vasitəsi ilə alır. Demək olar ki, ana özü subyekt olduğu üçün xarici mühitin obyektiv təsirini subyektləşdirir və həmin şəkildə də bu təsiri genotip, sonra isə rüşeym qəbul edir. O, bunu ananın subyekt olaraq bir hissəsi kimi qəbul edir və onun xüsusi subyektivliyi bu cür inkişaf edir. Belə olan halda rüşeymin mental və fiziki keyfiyyətləri ona ana daxilində müstəqil hərəkət etmək imkanı verir, vəssəlam. Rüşeym xarici qıcıqlandırmalara reaksiya verir, yəni o, hissi yaddaşa malikdir. Subyekt ontologiyasının ümumi prinsipinə görə, rüşeymdə hissi obrazlar şifrəsi, başqa sözlə desək, dil, başqa cür desək, təfəkkür formalaşır və hissi obrazları aktivləşdirir. Lakin bu dil və bu obrazlar daxili mühit miqyasında məhdud xarakter daşıyır.

Hər hansı anlayış konkret fiziki keyfiyyəti (prosesi) göstərən şifrədir. Buna görə də proses mürəkkəb olduqca anlayış da mürəkkəb olur.

Ən abstrakt anlayışlar, yəni ümumi anlayışlar hansısa əşya ilə assosiasiyaya deyil, konkret mövcud olmayan təsəvvürlərə əsaslanır. Varlıq məkan olduğu üçün ən abstrakt təfəkkürün formulu belədir: «hər yerdə belədir (ya da başqadır)». Dərkedən subyektə aid edildikdə bu formul başqası ilə əvəz olunur: «mən hara düşsəm də, hara hərəkət etsəm də, hər yerdə belədir». Demək, abstrakt təfəkkür subyektin cismani dünyanın bir hissəsi olaraq bacarığının bilavasitə hiss olunmayan perspektivlərə aktiv hərəkətini tələb edir.

Belə halda rüşeym anlayışı dar-əşyayi anlayışla məhdudlaşmışdır. Sözlər yaxud onun xarici mühitdən qəbul etdiyi başqa bir təsadüfi şifrə onun yaddaşında qəbul olunmuş bu və ya digər hissi obrazların ifadəsi kimi möhkəmlənir.

Rüşeym anaya münasibətdə subyekt olduğu üçün onunla birlikdə subyekt kimi inkişaf edərək tədricən ondan daha çox aralanır, həm fiziki, həm də mental mənada müstəqil fərdə çevrilir. Doğum məqamı bu prosesi başa çatdırır.

Belə olan halda doğum məqamında rüşeymin inkişafı nəticəsində insan dar-əşyayi obrazlar və anlayışlar kompleksinə malik olur. Buna görə də başlıca olaraq yeni

doğulanın mentaliteti şüuraltı qat deməkdir. Bu insanın sonrakı inkişafını nə dərəcədə müəyyən edir? İnsanın gələcək inkişafı əvvəlki kimi mühitin təsirinə onun reaksiyası vasitəsi ilə baş verdiyi üçün bu reaksiya insana xas olan keyfiyyətləri möhkəmləndirir, lakin yenilərini yarada bilmir. Özünün dünyaya gəlişi faktı ilə müstəqil subyekt olaraq mövcudluğunu başlayan yeni doğulmuş həmin subyektin ilkin mentallığı – rüşeymin inkişafının nəticəsi, onun mühitin müstəqil hissəsi kimi təşəkkül tapmasıdır, buna görə də onun gələcək inkişafı bütün həyat boyu bu əsasda qurulur.

Yeni doğulanın şüuraltı qatı – müəyyən bir nümunə, strukturdur ki, onun özəkləri informasiyanı qəbul edir və həmin struktura uyğun təşkil edir.

Körpənin hərəkət aktivliyinin (biz bu haqda demişdik) xarakterini müəyyən edən və möhkəmləndirən ilkin fiziki bacarığı barəsində də həmin sözləri demək olar.

Körpənin mürəkkəb şifrə sistemlərini, yəni sözün əsil mənasında dili qavramaq bacarığının müəyyən edən ilkin dar-əşyayi anlayış haqqında da bu sözləri demək olar.

Fiziki sistem olaraq, səs və vizual ifadəyə malik olan dil ətraf mühitin konkret, cisimlə və hissiyyatla qəbul edilən hadisələrini şifrələyir. Beləliklə, dildən kənarda anlayış yoxdur və məntiq də yoxdur. Biz bu haqda yuxarıda, məntiqin ontoloji statusu aspektində artıq danışmışdıq. Lakin indi bir sual meydana çıxır: insanın məntiqi bacarığının təbiəti necədir?

Əgər məntiq ən ümumi varlıq prinsipləri kompleksidirsə və əgər onları bu yaxud başqa empirik sistem çərçivəsində qeyri-ardıcıllığı aradan qaldırmaq yolu ilə şərh etmək, yaxud tətbiq etmək olarsa, dil – onu aradan qaldırmağın üsuludur. Dil belə üsuldur, çünki o şifrələr sistemidir: şifrələr, yəni sözlər isə öz aralarında daxili əlaqədədir ki, bunun tam uçotu qeyri-ardıcıllığı aradan qaldırmaq üçün vacib və yetəri şərtdir.

Belə olan halda insanın məntiqi qabiliyyəti onun dil qabiliyyətidirmi? Bəli, amma onun şifrələyici funksiyasından kənarda götürülən səslər və işarələr sistemi kimi yox, mənalar sistemi kimi, yəni şifrələr-sözlər arasında əlaqəli nisbətlər sistemi kimi dili təhlil etmək qabiliyyətidir.

Digər tərəfdən, dil bir şifrə kimi özünün məntiqi funksiyasını yalnız ifadə etdiyi hisslərlə əlaqədə aşkar edə bilər. Başqa cür desək, insanın hisslər kompleksi o anlayışları müəyyən edir ki, dilin vasitəsi ilə onun mentallığında möhkəmlənsin; müvafiq olaraq əgər insanın hissləri mühitin bir xüsusiyyətini o birinin zərərinə vurğulayırsa, birincilər anlayışlarda ikincilərdən daha yaxşı möhkəmlənir və nəticədə mühitin qavranması müəyyən dərəcədə birtərəfli, və deməli, ziddiyyətli olur.

Beləliklə, məntiqi qabiliyyət mühit barəsindəki hərtərəfli hissi təsəvvürə əsaslanır.

Eyni zamanda dil sisteminin daxili xüsusiyyətləri şübhəsiz ki, mental əhəmiyyətə malikdir. Dil sistemi özlüyündə səs və qrafik fiqurlar toplusu kimi insan üçün hisslər kompleksi olduğu üçün insanın səs və vizual təsəvvürlərinə müvafiq olaraq qəbul edilir. Buna görə də dil öz növbəsində insanın mühit barəsindəki hissi təsəvvürlərinə təsir göstərir: burada məkandakı hisslərin təşkil prinsipləri kimi sintaksis və morfologiyanı və insanın bu yaxud digər sözlərə - anlayışa emosional münasibəti kimi fonetika və qrafikanı ayırmaq lazımdır.

Hətta bütövlükdə varlığı səciyyələndirən ən ümumi anlayışlar hissi obraza, daha dəqiq desək, şəxsiyyətin özünü bir tam olaraq hiss etməsinə söykənir. Buna görə də insanın məntiqi hər hansı halda onun şüuraltı qatında köklənir. İnsanın mentalitetində inkişafın rüşeym mərhələsində möhkəmlənən həmin hissi təsəvvürlər bütün sonrakı duyğuları bir yerdə birləşdirən və möhkəmləndirən əsas olduğu üçün həmin hissi rüşeymlər insanın məntiqi inkişafının maksimum potensialıdır.

Şifrə sisteminin sabit olması üçün doğum zamanı artıq rüşeymdən ötrü xarici mühit olan insanların dilindən formalaşmış şifrə sistemi faktiki əhəmiyyətə malik olur. Təbiidir ki, insanın məntiqi qabiliyyətinin tam inkişafı üçün doğulduğu andan eşitdiyi dil hələ rüşeym vəziyyətində olaraq eşitdiyi dillə üst-üstə düşməli, yaxud ona çox yaxın olmalıdır.

İnsan doğulur və xarici aləmin bir hissəsinə çevrilir, lakin bu vaxt onun təsirinə reaksiya verərək bununla sanki özünü ondan ayırır. Buna görə də aktiv subyektin formalaşmasına səbəb olur. Bu zaman insanın fəaliyyəti mühiti dəyişdirir. Bu – sonrakı nəslin mental və fiziki xarakteristikalarını müəyyən edir. Şəxsiyyət şüurun və özünüdərkin vasitəsi ilə inkişaf edir – özünüdərk antivariantdır, çünki hər hansı mental aktın birinci pilləsində müəyyən olunduğuna görə, şəxsiyyət özündənkənara istiqamətlənmişdir. Antivariant mərhələsində inkişaf tam pozitiv ola bilməz, çünki burada pozitivlər də daxil olmaqla, əvvəlki mərhələnin bütün əlamətləri inkar olunur. Antivariant mərhələsi müəyyən dərəcədə reqressivdir; yalnız sintez mərhələsi optimaldır. Şəxsiyyətin özünün obyektlə vəhdətini dərk etməsi sintezdir. Bunu dərk edərək, şəxsiyyət mental və fizikinin eyniliyini başa düşür. Eynilik prinsipinə əsaslanan şəxsiyyət varlığa çatmağın maksimum səviyyəsinə nail olur. Bu triada həm insanın bütün həyatı miqyasında, həm də onun hər bir anında aşkar olunur.

İnsanın müstəqil subyekt olaraq həyatının ilk mərhələsi – şübhəsiz ki, abstrakt düşünə bilmək qabiliyyətinin və müvafiq olaraq hissli-obraz kompleksinin formalaşmasıdır. Birinci mərhələ, doğrudan da şəxsiyyətdən kənara istiqamətlənmişdir və buna görə də bütövlükdə şüur kimi müəyyənləşdirilir.

Bilik əldə edən insan, təbii ki, onu özünün ilkin (doğulduğu andan) subyektivliyinə uyğun şəkildə qəbul edir. Başqa sözlə desək, insan aldığı informasiyanı özünün hissiyyat, obraz və şifrə strukturu üzrə qurur.

Bu – artıq ikinci, yaradıcılıq (nəzəri və praktiki yaradıcılıq) mərhələsidir ki, insanın mental bacarıqlarının (bu yaxud digər dərəcədə uğurla) formalaşması başa çatır, yaradıcılıq həmin insan üçün optimal perspektivlər açır. Yaradıcılıq insanın özünüifadəsi deməkdir, mahiyyətcə o, insanın öz içinə istiqamətlənir və buna görə də ikinci mərhələ özünüdərk kimi müəyyənləşdirilir.

Nəhayət, yaradıcı mərhələ nəticəsində öz planlarını reallaşdıraraq, insan həyatının son mərhələsi üçün – özünə bənzəri yaratmaq üçün - şərait yaradır. Bütün şərtlərin yaranması – insanın bilik və bacarıq zirvəsinə çatması, onun fərdi mühit, yaradıcılıq mərhələsində yaratdığı təbiəti formalaşdırmasıdır. Yaradılmış təbiət öz üzərində insan fəaliyyətinin izini daşıyır. Buna görə də o, yeni insanın formalaşması üçün vacib olan hərəkətlər ardıcıllığı olaraq insan məntiqinin şəklini çəkir. Bu mərhələ şüurun və özünüdərkin sintezi kimi müəyyənləşdirilir, çünki insanın özündən kənarda özünü maksimum yarada bilməsi – görünür ki, budur. İnsanın qocalması – elə bir vəziyyətdir ki, onun diqqətini artıq dünya yox, onun əvvəlki dünyanı əvəz etmiş və artıq dünya statusu almış bədəni cəlb edir. Fikrin bu səmtdə dəyişməsi insan mentallığının transformasiyası ilə izah olunur ki, o – təbii olaraq başqa, yəni xarici mühitin dərkindən öz «mühitinin», yəni öz cisminin dərkinə çevrilir. Həmin bu mental meyil təbiidir, çünki insan şəxsiyyəti dərketmə yolunu ümumilikdə mühitin dərkindən başlayır və yalnız sonra özünü bir «mühit» kimi dərk etməyə qabil olur; özünüdərk, özünü eyniləşdirmə, əlbəttə ki, şəxsiyyətin son məqsədidir.

İnsan qocalırsa və nəhayət ölürsə, bu – onun xarici aləmi tamamilə dərk etməsi demək deyildir; qocalıq və ölüm məhz bu səviyyədə şəxsi dərketmə bacarığının tədrici və nəhayət tamamilə tükənməsidir. Başqa cür desək, insan özünün tamın bir hissəsi olaraq mühitdən ayrılmaq cəhdini reallaşdırır. Lakin insan üçün ölüm heç zaman tam adi bir şey deyildir; harmonik ölüm idealı qocalıqdan ölüm sayılır; lakin praktikada insan həmişə müəyyən dərəcədə həyata bağlı olur və bağlı olduqca da şüuraltı qatın «tələb etdiyi» mühitin ona etdiyi dağıdıcı təsiri (xəstəlik şəklində olsun, yaxud bədbəxt hadisə formasında) daha da güclü olacaqdır.

Demək olar ki, insan özünün nə olduğunu onlara qoyaraq öz övladlarında ölür. Hər halda insan üçün mental yaşamaq səbəbi itir; bunun ardınca da tədrici fiziki parçalanma baş verir.

Ümumontoloji inkişaf ardıcıllığı bu cür gedir: 1. cəsəd, insan əlamətlərinə malik cisim kimi genotiplə eynidir, lakin genotipdən fərqli olaraq insan olmaq bacarığından məhrumdur; 2. rüşeym, insan olmaq prosesi kimi, ölüm prosesi ilə eynidir; 3. insan həyatının birinci hissəsində onun yaranması və intellektual sahədə təşəkkül tapması onun yeni nəsil yaratması və tərbiyə etməsi ilə eynidir. Ümumontoloji prinsipə görə, inkişaf prosesinin hər bir mərhələsi tam prosesin mikrovariantıdır. Buna görə də həmişə bu yaxud başqa dərəcədə onun həyatındakı hər bir mərhələnin xüsusiyyətləri insana xasdır.

Biz artıq demişdik ki, ontoloji prinsipə görə insan ölmür, yenidən doğulur. Tamın komponentlərinin qarşılıqlı uyğunlaşması baş verir: insan öz cisminə qapılaraq mühitə uyğunlaşır, mühit isə öz üzərində insan fəaliyyətinin maksimum izini daşıyır. Ontologiyaya əsasən, yalnız bu cür uyğunlaşma inkişafın nəticəsi olaraq onun başlanğıcının əsası ola bilər. Dediyimiz halda bu, yenidən əldə olunmuş tam, yenidən əldə edilmiş harmoniya – insan gələcəyinin hələ bir-birindən ayrılması çətin olan fiziki və mental keyfiyyətlərinin potensialı şəklində genotipdir.

Görünür ki, insan həyatı onun cinsi mənsubiyyətindən asılı olmayaraq hər bir insanda elə həmin hissiyyatlı (mühit) qadın və anlayışlı kişi başlanğıclarının mübarizəsidir.

Genotip, rüşeym və s. anlayışları insanın fərdi inkişafının şəklini çəkərək kollektiv insan ölçüsündə analoji anlayışların mövcudluğunu nəzərdə tutur. Genotip digər insanların genotiplərinin kombinasiyası kimi yaranır; insanlar məkanda mövcud olaraq özlərinin məkandakı «qonşuları» ilə üstün seksual münasibətlər qurur. Beləliklə, hüdudları çərçivəsində ümumi daxili gen kombinasiyalarının mövcud olduğu areal ümumi gen əlamətləri yaradır.

Bu areal tam olduğu üçün həmin ümumi gen əlamətləri çərçivəli tipoloji xarakter daşıyır ki, onun daxilində ən müxtəlif variantlar mümkün ola bilər. Buradan da etnos anlayışı ortalığa çıxır.

Lakin etnos nəsə sərt bir şey deyil, çünki onun xarici sərhədləri şəffafdır və beləliklə də müntəzəm şəkildə digər etnosların yeni genotipləri hesabına yeniləşir; bu, onun fiziki və mental kefiyyətlər kompleksini daha da rəngarəng edir. Təbiidir ki, prosesin tədriciliyi etnosun bir hissəsinin digərindən əvvəl transformasiya edilə biləcəyi deməkdir.

Məkandakı müxtəlif etnoslar eyni bir fiziki mühitin təsiri altında yanaşı yaşayır. Buna müvafiq olaraq fərdi səviyyədə məkanın təsiri altında genotip rüşeymə çevrilir; beləliklə gələcək insanın şüuraltı qatı formalaşır. Fikrimizcə, millilik anlayışını rüşeym anlayışının kollektiv analoqu kimi işlətmək olar.

Çox zaman dili milliliyin əlamətlərindən biri sayırlar. Lakin şifrələr sistemi olaraq dil insanın konkret hissələri kompleksindən kənara çıxa bilmir və onlara münasibətdə xarici bir şeydir; bundan başqa, fiziki cisimlər kompleksi olaraq dil insanın artıq təşəkkül tapmış hissi qaydalarına uyğun şəkildə qəbul edilir. Bu o deməkdir ki, millilik insanın şüuraltı qatı ilə, onun hissi göstərişləri ilə ifadə olunur; dilin mənası isə – həmin göstərişləri maksimum dolğunluğu ilə ifadə etməkdir.

Buna görə də milliyinin başlıca amili – mühitdir – məkan olaraq, təbiət cisimləri kompleksi olaraq; mühit isə – anlayışlar kompleksi, dil kimi əvvəlcədən millilikdənkənardır.

Beləliklə, millətin dili dəyişə bilər; amma onun milli dərinliyi, onun hissi dərki isə indi başqa bir, yeni dil vasitəsi ilə daha çox yaxud daha az uğurla, ya da özünün başqa aspektlərində ifadə olunaraq əvvəlki kimi qalacaqdır; bir millətin ayrı-ayrı qrupları müxtəlif dillərdə danışa bilər və əvvəlki kimi bir millət təşkil edəcəklər. Burada qeyd etməliyik ki, bu və ya başqa dilin yayılma faktı özü həmin millətin inkişafı ilə, yəni onun həm hiss, həm də dil (əvvəlki) və mühit səviyyəsində ilkin mentalitetinin təsiri ilə əlaqələndirilir.

Millət müəyyən dərəcədə öz aralarında uyğun gələn ayrı-ayrı şəxsiyyətlər toplumu kimi mövcüd olur. Millətin vahid bir mühit sistemi kimi sərhədləri şəffaf olur, çünki xarici mühit amillərinin müntəzəm təsirinə məruz qalır. Buna görə də millət daxilində həm qrup, həm də fərdi səviyyədə müxtəlif insan xarakterlərinin olması mümkündür.

Burada qeyd etmək lazımdır ki, hər hansı transformasiyanın tədriciliyi millətin bir hissəsinin ümumi prosesdə digərini geridə buraxa bilməsinin mümkünlüyü deməkdir.

Millətin məkan vasitəsi ilə dərki şəxsiyyətin mental inkişafının şüur səviyyəsində (anlayış) analoqu olaraq ölkə (dövlət) anlayışına gətirib çıxarır. Başqa cür desək, ölkənin meyarı hər şeydən əvvəl bu və ya digər dildir. Burada müəyyən dünyaqavrayışı və dünyagörüşünə əsaslanan mental və fiziki fəaliyyət toplusu olaraq mədəniyyət anlayışından danışmaq lazımdır.

Mədəni və milli eynilik etnik eyniliyə təsir edir, məsələn, etnik əlaqələrə və yeni etnosların yaranmasına səbəb olur.

Beləliklə, insan həyatı və kollektiv insan birlikləri vektoru üzrə kişiliyin və qadınlığın qarşılıqlı təsiri qeyri-iradi hisslərin (genotipə analoji), şüuraltı qatın və şüurun qarşılıqlı təsir məntiqi üzrə inkişaf edir.

***Seminarı necə keçirməli?***

Bu – kursun ən qlobal mövzusudur. Buna görə də yaxşı olar ki, seminar konfrans şəklində keçirilsin və tələbələrdən hər biri mövzuya dair suallardan birisi üzrə əvvəlcədən hazırladığı esse əsasında qısa məlumatla çıxış edə bilsin. Essenin tələbələr tərəfindən müzakirə olunması, müəllimin isə moderator rolunda çıxış etməsi ehtimal olunur.